Müstəqillik qazandıqdan sonra sayagəlməz uğurlara imza atmışıq. İctimai-siyasi və mədəni həyatımızdakı nailiyyətlər hər birimizi daha parlaq qələbələrə ruhlandırır. Ancaq gündəlik fəaliyyətimizdə nöqsan və çatışmazlıqlar da az deyil. Onlardan biri də yerlərdə hərbi-vətənpərvərlik tərbiyəsinin zəif aparılması ilə bağlıdır.

Bu həm də ona görə bağışlanılmazdır ki, müharibə şəraitində yaşayırıq, torpaqlarımızın 20 faizi işğal altındadır, əhalimizin hər 8 nəfərdən biri qaçqındır.

# Qəhrəmanlıq dastanlarımız və hərbi-vətənpərvərlik tərbiyəsi



Həmişə Koroğlu, Qaçaq Nəbi, Babəkin varisləri olmağımızla qürrələnir, fəxr edirik. Amma gəlin görək gənclərimizdə onların mübariz xarakterik xüsusiyyətlərini, qorxmazlığını, şücaətini aşılamaq üçün həmin qəhrəmanlarla əlaqədar ədəbi nümunələrdən bəhrələnirikmi? Nümunə üçün "Koroğlu" dastanını götürək. Bildiyiniz kimi ictimai məzmununa, ideya əzəmətinə və digər dəyərinə görə "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq tarixinin canlı inikasıdır. Bu möhtəşəm abidə zaman-zaman aşıqlarımız tərəfindən yeni boyalarla, cizgilərlə zənginləşmiş, xalqın ruhuna, qanına hopmuş, qüvvət və qüdrət, qəhrəmanlıq mücəssəməsinə çevrilmişdir.

Təsadüfi deyil ki, indinin özündə də gənclərimiz Koroğlu, Dəli Həsən, Eyvaz, Dəmirçioğlu, Gizir oğlu Mustafabəy kimi qəhrəmanların xarakterlərində olan cizgiləri, fərdi cəhətləri, keyfiyyətləri mənimsəməyə çalışırlar.

"Koroğlu" tarixi qəhərmanlıq dastanlarımızın tələblərinə tam cavab verən bir eposdur. Burada belə bir sual meydana çıxır: qəhrəmanlıq dastanları hansı cəhətləri ilə səciyyələnirlər?!

Əvvəla bu qəhrəman qeyri-adi fiziki qüvvəyə malik olmalı, xarakterinin bütövlüyü, cəsurluğu, özünə inamı ilə fərqlənməlidir. Burada qəhrəman nağıllardan fərqli olaraq daha ictimai səciyyə daşıyır. Hadisələrin gedişi bir nəsillə bir ailə arasında deyil (nağıllarda olduğu kimi), nəsillə dövlət arasında cərəyan edir.

İkinci tərəfdən, dastan qəhrəmanları xalq həyatının bütöv təsvirini, kollektivin obrazını əks etdirən geniş fonda çıxış edir. Burada həyatın kiçik qayğıları deyil, ümumxalq mənafeyini ifadə edən mühüm ictimai qayə ön plana çəkilir. Nəhayət, üçüncü cəhət, qəhrəmanın şəxsiyyəti, nüfuzu ilə kollektivin harmonik bağlılığıdır. Burada özünə inam duyğusuna malik olan qəhrəman bütün bacarığını xalqın xidmətinə, vətənin müdafiəsinə sərf edir. Dastanda şəxsi mənafenin ümumi məqsədə, ictimai mənafeyə tabe olunma faktı yoxdur. Sadəcə olaraq fərdin şəxsi marağı ictimai maraqla birləşib bir nöqtədə kəsişir. Beləliklə, vətənə ümumxalq məhəbbətinin mənbəyini göstərən amillər aydın təcəssüm olunur ki, bu da dastanın əsas məziyyəti, ictimai məzmun kəsb etməsidir.

"Koroğlu" dastanı göstərilən xüsusiyyətlərin hər üçünü özündə birləşdirir. Buradakı qəhrəman xalqın azadlığı uğrunda mübarizə aparan mərd insandır, onun mübarizəsi vətənə ümumxalq məhəbbəti ilə nəticələnir, xalqın vətənpərvərlik duyğularının təntənəsinə çevrilir.

Bu xüsusiyyətlərinə görə də "Koroğlu" dastanı sənətimizin ən yüksək zirvəsi hesab edilir. Yuxarıda qeyd etdiyimiz kimi, tədqiqatçı alimlərimiz istisna edilməklə dastanlara həyat verən,



onları yaşadan, bu günə qədər mühafizə olunub saxlanılmasında el aşıqları böyük rol oynamışlar. Məlum olduğu kimi, Koroğlu özü də aşıq olmuş və çox zaman öz qələbələrini sazın, sözün gücü ilə qazanmışdır.

Bildiyiniz kimi, aşıq sənəti öz təbiətinə görə sinkretik sənətdir. Belə ki, o oxumağı, saz çalmağı, şer deməyi, dastan danışmağı bacarmalıdır. Milli musiqimizin gözəl bilicisi, mərhum bəstəkarımız Ə.Bədəlbəyli özünün "Musiqi lüğəti" adlı kitabında aşıq sözünə belə tərif verir: "Aşıq - şairlik istedadını, musiqi alətində çalmaq, mahnı oxumaq və rəqs etmək bacarığını özündə birləşdirən xalq sənətkarıdır".

Ədəbi janr kimi, özünün ənənəliyi ilə seçilən dastandakı epik süjetləri məhz aşıqlar dildən-dilə ötürür və onlarda ədəbi-irsi xüsusiyyətlərin saxlanması qaydalarına ciddi riayət edirlər. Buna görə də dastanlar illərin keşməkeşindən keçərək, bütöv yaradıcılıq məhsulu kimi gəlib bizə çatmışdır.

Hər bir incəsənət əsərinin əsasını ənənəviliklə novatorluğun, varisliklə yeniliyin dialektik vəhdəti, sintezi təşkil edir. Şifahi xalq yaradıcılığının musiqili janrlarında da məhz varislik böyük əhəmiyyət kəsb edir. Bununla belə şifahi xalq yaradıcılığında improvizasiya da özünü göstərir. Hər bir aşıq bu və digər dərəcədə improvizasiyadan istifadə edir.

"Koroğlu" dastanı istismar olunmuş xalqın öz azadlığı, səadəti və hüququ uyğrunda apardığı mübarizəni rəngarəng boyalarla əks etdirən ölməz sənət abidəsidir.

***Beləliklə, söhbətimizə yekun vuraraq bildiririk: Koroğlunun, Babəkin, Qaçaq Nəbinin varisi olmaq nə qədər fərəhlidirsə onların əməllərini yaşatmaq, torpaqlarımızı erməni tapdağından son qarışınadək təmizləmək bir o qədər şərəflidir. Bu şərəfə nail olmaq üçünsə gənclərimizi hələ körpəlikdən torpağa məhəbbət, vətənə sədaqət ruhunda tərbiyə etmək gərəkdir.***

**İlqar Hüseynov**